# Lənkəranda yeni kollec fəaliyyətə başlayıb

**Sovetlər birliyinin süquta uğramasından sonra ölkəmiz dünyəvi, demokratik, hüquqi, unitar səciyyəli olmaqla yanaşı, həm də öz milli-mənəvi dəyərlərinə söykənən dövlətə çevrilmişdir. Sovet dönəmində uzun illər ibadət ocaqlarının fəaliyyətinə, dini ayinlərin icrasına qoyulmuş qadağalar artıq aradan qaldırılmış, yeni ibadət evlərinin və dini təhsil müəssisələrinin əsası qoyulmuşdur. Bu sahədə yerli milli kadrların hazırlanmasına, dini maarifləndirmə işində, əsasən, daxili potensialdan istifadə olunmasına diqqət yetirilməsi vacib faktora çevrilmişdir. Təbii ki, bütün bunlar 1993-cü ildə xalqın təkidilə yenidən hakimiyyətə gələn ulu öndər Heydər Əliyevin dövlət–din münasibətləri sahəsindəki uğurlarının nəticəsidir.**



"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu ölkədə vicdan azadlığının təmin edilməsi, dini qurumların statusu, onların fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı bütün məsələlərə aydınlıq gətirmişdir. 2001-ci ildə ümummilli liderin imzaladığı fərmanla Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması ilə dövlət–din münasibətlərində yeni mərhələ başlanmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə dini dəyərlərin qorunub saxlanması və inkişafı istiqamətində məqsədyönlü dövlət siyasəti həyata keçirilir, İslam həmrəyliyinin gücləndirilməsi və dini dəyərlərin müdafiəsi üçün beynəlxalq səviyyədə fəaliyyət qurulur. Dövlət başçısının sərəncamı ilə 2016-cı ilin "Multikulturalizm ili", 2017-ci ilin "İslam Həmrəyliyi ili" elan edilməsi, 2017-ci ildə Bakıda IV İslam Həmrəylik Oyunlarının keçirilməsi məhz bu siyasətin bariz nümunəsidir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birlikdə Qafqaz Müsəlmanları İdarəsi tərəfindən dini maarifləndirmə sahəsində geniş işlər görülür. Möhtərəm Prezidentimiz dövlət–din münasibətlərinin formalaşması, milli həmrəyliyin və mənəvi-əxlaqi dəyərlərin bərqərar olması sahəsində xüsusi xidmətlərinə görə və anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illiyi münasibətilə Hacı Allahşükür Paşazadəni "Heydər Əliyev" ordeni ilə təltif etmiş, ona təbrik məktubu ünvanlamışdır. Yubileylə əlaqədar bölgələrdə, paytaxt Bakıda silsilə konfranslar, tədbirlər keçirilmişdir. Bütün bunlar bir daha ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə olduğunu göstərir. Məhz bu münasibətlərin əməli nəticəsidir ki, noyabrın 14–15-də paytaxtımız növbəti beynəlxalq tədbirə ev sahibliyi edəcək. Bu dəfə dünya dini liderləri II Bakı Sammitində bir araya gələcəklər.

Möhtərəm Prezidentimizin daimi diqqət və qayğısı ilə ölkədə yeni məscidlər tikilir, mövcud ibadət yerləri təmir edilir. Təkcə onu demək kifayətdir ki, əgər sovetlər dönəmində Azərbaycanda cəmi 17 məscid var idisə, bu gün onların sayı 2 mindən çoxdur. Son 15 ildə ölkədə 140-dan çox məscid inşa olunmuş, 80-dən artıq məsciddə əsaslı təmir və yenidənqurma işləri aparılmış, o cümlədən dövlət vəsaiti hesabına onlarca məscid bərpa edilmişdir.

Xalqımızın zəngin milli-mənəvi dəyərlərinə böyük həssaslıqla yanaşan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın ölkəmizdə ibadət evlərinin bərpası və yeni məscidlərin tikilməsi istiqamətində gördüyü işlər də əvəzsizdir. Fond "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində təkcə öz ölkəmizdə yeni məscidlər inşa etməmiş, həm də bir sıra xarici dövlətlərdə ibadət evlərinin bərpası və tikintisində fəallıq göstərmişdir.

Bizim Lənkəran rayonunda da 78 məscid və xeyli sayda ziyarətgah əsaslı təmir olunub. Şıxəkəran kəndində Şeyx Zahid türbəsi, Cil kəndində Seyid Xəlifə və Şağlakücə kəndində Seyidəpir ziyarətgahları, Səpnəkəran, Cil, Viravul, Girdəni, Göyşaban kənd, Aşağı Nüvədi qəsəbə məscidləri yenilənərək dindarların istifadəsinə verilmişdir. Fərəh hissi ilə onu da deyim ki, Azərbaycanın hər yerində olduğu kimi, Lənkəranda da insanların tolerantlıq mühitində yaşamasından ötrü hərtərəfli lazımi şərait var.

Qloballaşan dünyamızda insanların mənəvi ehtiyaclarını ödəmək üçün dini bilgilər böyük əhəmiyyət kəsb edir. İnsan bir şeyi bilmədiyi zaman onu öyrənməyə, mahiyyətini anlamağa çalışmalıdır. Müqəddəs Qurani-Kərimdə belə bir ayə var: "Soruşun, sual edin, bilmədiklərinizi zikr əhlindən (bilənlərdən) soruşun, ta siz də bilənlərdən olasınız".

Həyatın bütün sahələrindən bəlkə də, daha çox, mənəviyyat sahəsində milli kadrların hazırlanmasına ehtiyac var. Azərbaycan dövlətinin bununla bağlı öz strategiyası var. Artıq vətəndaşlarımızın xarici ölkələrdə dini təhsil almasına zərurət yoxdur. Bakı İslam Universiteti, Azərbaycan İlahiyyat İnstitutu bu sahədə milli kadr potensialının yaradılmasına töhfələr verir. Bundan başqa, dini icmaların nəzdində Quran kursları təsis olunur. Amma yenə də bölgələrimizdəki məscidlərdə savadlı din xadimləri çatışmır. Bakıda və bölgələrdə orta ixtisas təhsili verən cəmi üç kollec mövcud idi. Bu baxımdan möhtərəm Prezidentimiz İlham Əliyevin fərmanı və Şeyxülislam Hacı Allahşükür Paşazadənin xeyir-duası ilə yeni kolleclərin yaradılması təqdirəlayiqdir. Artıq 2 ildir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yeddi yeni kollec qeydiyyatdan keçmişdir.



Lənkəran İslam Kolleci də 2017-ci ildə qeydiyyata alınmış orta dini təhsil müəssisəsidir. Sentyabrın 27-də kollecin açılışı olmuşdur. Tədbirdə QMİ sədrinin müavinləri Qəmərxanım Cavadlı, Fuad Nurullah və başqaları iştirak etmişlər. Burada təhsil müddəti 4 ildir. Tələbələr Qafqaz Müsəlmanları İdarəsinin elm-təhsil şöbəsinin yaratdığı komissiya tərəfindən qabiliyyət və müsabiqə yolu ilə seçiliblər. İlkin mərhələdə kollecimizdə 20 tələbə təhsil alır. Onlar cənub bölgəsinin orta məktəblərini bitirmiş, həqiqi hərbi xidmətdən tərxis olunmuş və ya hərbi xidmətdən möhlət hüququ olan gənclərdir. Digər rayonlardan gəlmiş tələbələr üçün də lazımi şərait yaradılıb. Kollecdə həm dini, həm də dünyəvi-humanitar fənlər tədris olunur.

Gəncləri yüksək əxlaqi və dini dəyərlər ruhunda tərbiyə etmək əzmindəyik.

***Hacı Sədi Axundzadə,***
***QMİ-nin Cənub bölgəsi üzrə qazisi, Lənkəran İslam Kollecinin direktoru***